***Əlavə 1***

*Azərbaycan Respublikasının*

*İpoteka və Kredit Zəmanət Fondunun*

*İdarə Heyətinin “25” avqust 2025-ci il tarixli*

*20-2025 nömrəli Protokoluna Əlavə*

AZƏRBAYCAN RESPUBLİKASININ
İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

**11 iyul 2025–ci il tarixində təsdiq edilmiş, hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 50,000 (əlli min) ədəd sənədsiz, adlı faizli təmin edilməmiş istiqrazların**

**EMİSSİYA PROSPEKTİ-nə dəyişiklik**

1. **Əsaslandırma:** İstiqrazların kütləvi təklifi və yerləşdirilməsi üzrə investisiya xidmətinin həyata keçirilməsi üçün "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti ilə bağlanmış müqavilənin müddəti başa çatmış, 07 avqust 2025–ci il tarixində isə "İnvest-AZ İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti ilə yeni müqavilə bağlanmışdır. Qeyd olunmuş məlumata əsasən emissiya prospektinə aşağıda dəyişikliklər edilsin:

   1.1. Emissiya Prospektinin 5.2 , 20.5 və 20.6–cı bəndlərində "Unibank KB" ASC ifadəsi "Azər-Türk Bank" ASC ifadəsi ilə əvəz edilsin.
   1.2. Emissiya Prospektinin 5.3 və 18.1–ci bəndlərində "Unicapital" ifadəsi "İnvest-AZ" ifadəsi ilə əvəz edilsin.
   1.3. Emissiya Prospektinin 20.11–ci bəndində verilmiş məlumatlar aşağıda verilmiş məlumatlarla əvəz edilsin:

   Öhdəlik götürmədən yerləşdirən anderrayter:

   Tam adı: "İnvest-AZ İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti

   Qısaldılmış adı: "İnvest-AZ İnvestisiya Şirkəti" QSC

   Hüquqi ünvan: Bakı şəhəri, Xətai rayonu, Fəzail Bayramov küçəsi 28F, İnvestAz Plaza

   Telefon: (012) 488 05 88

   E-mail: fxdestek@investaz.az

   VÖEN: 1800354501

   Lisenziyalar: "İnvest-AZ İnvestisiya Şirkəti" QSC 09 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş İSN/L-38/2016 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

   Xidmət haqqı: 1 (bir) manat.

   1.4. Emissiya Prospektinin 20.12–ci bəndində "25.06.2025–ci il" ifadəsi "07.08.2025–ci il" ifadəsi ilə əvəz edilsin.

2. **Əsaslandırma:** İnvestorların təşviqi, istiqrazların cəlbediciliyinin artırılması, istiqrazların ilkin bazarda alışı və təkrar bazarda əməliyyatlarının aparılması ilə bağlı investorların xərclərinin optimallaşdırılması məqsədilə emissiya prospektinə aşağıda dəyişikliklər edilsin:

   2.1. Emissiya Prospektinin 5.4, 20.10–cu bəndlərinə "İstiqrazların yerləşdirilməsi və təkrar bazarda satışı ilə bağlı ilkin istiqraz alıcısının Bakı Fond Birjasına, Milli Depozit Mərkəzinə ödənişləri emitent tərəfindən qarşılanır. İstiqrazların ilkin bazarda alışı və/və ya təkrar bazarda satışına dair ilk əqd bağlandıqdan sonra növbəti 3 (üç) iş günü ərzində ilkin istiqraz alıcısı emitentə müvafiq təsdiqləyici sənədləri və müvafiq vəsaitin köçürülməsi üçün bank

rekvizitlərini təqdim etməklə xərclərin əvəzləşdirilməsinə dair müraciət edir. Emitent tərəfindən tələb olunan vəsait 5 (beş) iş günü ərzində istiqraz mülkiyyətçisinin müvafiq bank hesabına nağdsız qaydada köçürülür” mətni əlavə edilsin.

3. **Əsaslandırma:** . Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyul tarixli 454 nömrəli Fərmanı ilə Fondun nizamnamə kapitalı 1153.4 mln. manat müəyyən olunmuşdur. Qeyd olunanları nəzərə alaraq emissiya prospektinə aşağıda dəyişikliklər edilsin:

   3.1. Emissiya Prospektinin 17.1 bəndində “Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 09 oktyabr tarixli 207 nömrəli Fərmanı ilə Emitentin nizamnamə kapitalı 1068.4 mln. manat müəyyən olunmuşdur” cümləsi “Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyul tarixli 454 nömrəli Fərmanı ilə Emitentin nizamnamə kapitalı 1153.4 mln. manat müəyyən olunmuşdur” cümləsi ilə əvəz edilsin.

4. Emissiya prospektinin digər müddəaları dəyişmədən qüvvədə qalır.

| | | |
|---|---|---|
| ____İdarə Heyətinin sədri_____ | _________________ | ____Fəxri Kazımov_____ |
| *(emitentin rəhbərinin vəzifəsi)* | *(imza)* | *(adı, soyadı)* |

M.Y.